# "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1039-VIQD nömrəli Qanununun tətbiqi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1039-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.24 - 20.0.28-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 20.0.24-cü və 20.0.26-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

1.3. həmin Qanunun 20.0.25-ci maddəsində "orqan (qurum)" dedikdə Beynəlxalq Humanitar Yardım üzrə Dövlət Komissiyası nəzərdə tutulur;

1.4. həmin Qanunun 20.0.27-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti nəzərdə tutulur;

1.5. həmin Qanunun 20.0.28-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi nəzərdə tutulur.

2. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 801; 2016, № 2 (II kitab), maddə 260, № 6, maddə 1022; 2017, № 8, maddə 1521; 2022, № 1, maddə 19, № 5, maddə 474; 2023, № 1, maddə 92) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1-1-ci bənddə "və 20.0.23-cü (hər iki halda)" sözləri ", 20.0.23-cü (hər iki halda) və 20.0.24 - 20.0.28-ci" sözləri ilə əvəz edilsin;

2.2. 3.9-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.10 - 3.13-cü bəndlər əlavə edilsin:

"3.10. həmin Qanunun 20.0.24-cü və 20.0.26-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

3.11. həmin Qanunun 20.0.25-ci maddəsində "orqan (qurum)" dedikdə Beynəlxalq Humanitar Yardım üzrə Dövlət Komissiyası nəzərdə tutulur;

3.12. həmin Qanunun 20.0.27-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti nəzərdə tutulur;

3.13. həmin Qanunun 20.0.28-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2023-cü il*

---

Azərbaycan.- 2023.- 28 dekabr (№ 285).- S.3.